mühazirələrə mövzular qarşısında çıxış

# "Hacı Zeynalabdin Tağıyevin milli miqyası"

Martın 16-da Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə növbəti "Novruz mühazirəsi" Bakı şəhəri H.Z.Tağıyev adına 123 nömrəli tam orta məktəbdə keçirilib. Əvvəlcə qonaqlar məktəbin şəhid məzunlarının və 1918-ci ildə türk qardaşlığı yolunda şəhid olanların əziz xatirəsini yad ediblər. Sonra məktəbin həyətində Hacı Zeynalabdin Tağıyevin büstü ziyarət olunub. Daha sonra ağacəkmə kampaniyası keçirilib.

"Hacı Zeynalabdin Tağıyevin milli miqyası" mövzusunda keçirilən "Novruz mühazirəsi"ndə Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov qonaqları salamlayaraq qeyd edib ki, bugünki mühazirədə Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri olan Hacı Zeynalabdin Tağıyev haqqında danışılacaq. C.Valehov vurğulayıb ki, nəcib əməlləri ilə zəngin insanlıq məktəbi yaradan Hacı Zeynalabdin Tağıyevin dərin və mənalı həyat yolunun gənclər arasında təbliğinin əhəmiyyəti çox vacibdir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva H.Z.Tağıyevin sahibkar və xeyriyyəçi kimi keçdiyi yola nəzər salaraq, onun Azərbaycan xalqının maariflənməsi, istedadlı insanların yüksək təhsil alması, kütləvi savadsızlığın aradan qaldırılması, milli kadrların hazırlanması istiqamətində gördüyü misilsiz xidmətlərindən danışıb. M.Vəliyeva çıxışında Hacı Zeynalabdin Tağıyevin gələcək nəsillərə miras qoyduğu mənəvi irsindən, elm və təhsilə verdiyi dəyər və dəstəkdən söz açıb.

Sonra "Novruz mühazirəsi"ndə tarix elmləri doktoru, dosent Fərhad Cabbarov çıxış edib. F.Cabbarov mühazirədə Hacı Zeynalabdin Tağıyevi zənginliyə aparan yol, təsadüf, yoxsa gərgin əməyin nəticəsi, milli təhsilimizin inkişafında Tağıyev nümunəsi, Tağıyev milli sahibkarlığın təməlində duranlardan biri kimi, Tağıyevin qızlar məktəbi - xeyriyyəçinin şah əsəri, Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə həyata keçirilən bir çox önəmli layihələr barədə söhbət açıb.

Digər çıxış edənlər də Hacı Zeynalabdin Tağıyevin şərəfli ömür yolundan, xeyriyyəçilik fəaliyyətindən söz açıblar. Qeyd olunub ki, Tağıyev Azərbaycan xalqının rifahının yüksəlməsi, maariflənməsi üçün əlindən gələni əsirgəməyib, ölkəmizdə təhsil və mədəniyyət ocaqlarının açılmasına, tələbələrin xaricdə təhsil almasına böyük vəsait ayırıb.

**Rəşad ZİYADOV**

Azərbaycan müəllimi.-2023.-17 mart.S.4.